# Biz qayıtmışıq, Xocalı!

*"Biz Xocalısız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunduğunu hesab edə bilməzdik. Xocalının Azərbaycan xalqının tarixində və şüurunda o qədər böyük yeri var ki, bu facia qəlbimizdə o qədər böyük yaralar salıb ki, Xocalı azad olunmadan biz sakitləşə bilməzdik. Beş ay əvvəl antiterror tədbirləri nəticəsində Xocalı daxil olmaq şərtilə, bütün o vaxt digər ərazilər - hansılar ki, işğal altında idi və separatçılar orada at oynadırdılar, - azad edildi. 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan Bayrağı qaldırıldı. Biz Xocalıda böyük abadlıq işlərinə də start vermişik". Prezident İlham Əliyev bu fikirləri ötən il fevralın 26-da Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoyduqdan sonra rayon ictimaiyyəti ilə görüşü zamanı deyib.*

Vətənimizin ən gözəl guşələrində məskunlaşan, çörəyimizi yeyib, suyumuzu içən, özlərinə yer etdikdən sonra tarixi ərazilərimizdə dövlət quran ermənilərin nankorluğu, alçaq niyyət, kin-küdurəti zaman-zaman törətdikləri hadisələrdə özünü büruzə verib.

**(davamı 3-cü səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Türkə düşmən olan bu vəhşi qəbilə əlinə fürsət düşən kimi ona qarşı terror, təxribatlar, soyqırımları, etnik təmizləmələr həyata keçirib. Tarixi torpaqlarımızda, Qarabağ və onun yaxınlığındakı yeddi rayonda yaşayan azərbaycanlılar kökü bilinməyən hayların təcavüzkarlıq siyasətinə məruz qalıb, ev-eşiklərindən, əzəli yurd yerlərindən zorla çıxarılıb məcburi köçkün həyatı yaşamağa məcbur olublar. Ermənilərin ötən əsrin əvvəllərində - 1905-1906-cı illərdən etibarən başlatdıqları etnik təmizləmə siyasəti 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə davam etdirilib. XX əsrdə azərbaycanlıları dörd dəfə tarixi torpaqlarından deportasiya edən mənfur qonşularımız dünyaya özlərini məzlum, soyqırımına məruz qalmış xalq kimi göstərməyə çalışıblar. Lakin tarix heç nəyi unutdurmur…

Ötən əsrin sonlarında ölkəmizdə baş verən siyasi proseslər fonunda çoxdan güddükləri fürsəti yaxalayan ermənilər azərbaycanlıları ata-baba torpaqlarından zorla çıxarmaq, monodövlət yaratmaq, vaxtilə qəsb etdikləri əraziləri daha da genişləndirmək məqsədilə xalqımızın başına min bir müsibət açdılar. Ərazilərimizə yerləşdikləri gündən mərhələli şəkildə həyata keçirdikləri antitürk siyasətinin ən qəddar nümunəsi isə bəşəriyyətə yönəlmiş cinayət aktı-Xocalı faciəsidir. 1991-ci ilin oktyabrında Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə mühasirəyə alınan Xocalıda müharibədən əvvəl 7 min insan yaşayırdı və şəhər yerli özünümüdafiə dəstələri tərəfindən qorunurdu. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalını işğal edən erməni silahlı qüvvələri şəhəri darmadağın etdilər, yerli əhalini məhz azərbaycanlı olduqlarına görə xüsusi amansızlıqla qətlə yetirdilər. Günahsız, dinc əhalinin boranlı, şaxtalı qış günündə evlərindən zorla çıxarılmaları, insanlıq adına sığmayan işgəncələrlə öldürmələri xalqımızın qan yaddaşında dərin izlər qoyub və əsrlər, qərinələr keçsə belə bu yaddan çıxmayacaq.



Əslində ermənilər və onlara havadarlıq edənlər keçmiş münaqişəni uzatmaqla bütün bu əməllərin unudulacağını, üstündən illər keçdikcə yaddaşlardan silinəcəyini düşünürdülər. Buna görə də Azərbaycanın 30 il məsələnin danışıqlar yolu ilə həll olunmasına nə özləri, nə də bu münaqişənin ssenarisini yazanlar heç bir vəchlə razı olmur, vaxt qazanmağa çalışırdılar. Bəli, uzun müddət belə oldu… Amma ailə üzvlərini itirmiş, fundamental hüquqlardan məhrum edilmiş insanlar ağrı-acısı ilə, çiyinlərində torpaq, yurd itkisi kimi ağır bir yük, ürəklərində qübar edən, sızıldayan kədərlə çətin sınaqlardan keçdilər. Amma bir ümid işığına tapındılar. İnandılar ki, hər zaman xalqının yanında olan, onun mənafeyini hər şeydən üstün tutan dövlət başçısı İlham Əliyev qətiyyəti, prinsipiallığı ilə gec-tez ədalətin öz yerini tapmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına nail olacaq. Əmin oldular ki, gün gələcək gözü yaşlı, ürəyi dağlı tərk etdikləri doğma yurdlarına dönəcəklər. 32 il yurd həsrətinə, övlad itkisinə, doğmalarının, əzizlərinin yoxluğuna qatlaşan xocalılılar əzəli torpaqlarına qayıdacaqları günü səbirsizliklə gözlədilər.

2020-ci ildə ermənilərin növbəti təxribatına qarşı əks-hücum əməliyyatı keçirən Azərbaycan ordusunun bölmələri cəmi 44 gün ərzində düşmənin belini qırdı, 30 il ərzində törətdikləri əməllərə görə hərb meydanında cavab verməli oldular. Ana torpaq uğrunda canından keçməyə hazır olan, ölümə meydan oxuyan Azərbaycan oğlunun qarşısında tab gətirə bilməyən düşmən silah-sursatını tullayaraq qaçmağa məcbur oldu. Torpaq uğrunda gedən müharibədə vətənpərvər, mərd oğullarımız qəhrəmanlıq dastanı yazdılar. Qısamüddətli, lakin dünya hərb tarixində strategiyası, taktikası hələ də öyrənilən İkinci Qarabağ müharibəsi şanlı səhifəyə çevrildi. Ərazi bütövlüyümüz bərpa edildi, düşmən kapitulyasiya aktı imzaladı. Lakin bəzi ərazilər, o cümlədən Xocalı hələ də işğal altında qalmışdı.

2023-cü il sentyabrın 19-20-də rəşadətli Azərbaycan ordusu Qarabağda erməni separatizminin yuvasını dağıtmaq, xunta rejiminin kökünü kəsmək məqsədilə beynəlxalq humanitar hüquqa uyğun şəkildə birgünlük antiterror tədbirləri keçirdi. Yüksək peşəkarlıqla, cəsarətlə aparılan döyüşlərdə Xocalı, Xankəndi, Ağdərə, Xocavənd rayonları və Əsgəran qəsəbəsi işğalçılardan azad edildi. Oktyabrın 15-də Müzəffər Ali Baş Komandan İlham Əliyev Xocalıda Azərbaycan Bayrağını ucaltdı. Həmin gündən etibarən bir vaxtlar erməni faşizminin vandal siyasətinə məruz qalmış, şəhid Xocalının bərpasına başlanıldı, bərpa-quruculuq geniş vüsət aldı. Neçə-neçə qəhrəman övladlarının qanı bahasına azadlığına qovuşmuş bu şəhərə indi həyat yenidən qayıdır. Müzəffər Sərkərdənin, rəşadətli ordunun və mübariz xalqın birliyi sayəsində fəxrlə, qürurla, əzmkarlıqla Böyük Qayıdışın Xocalı salnaməsi yazılır. Fevralın 19-da Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olduqdan sonra kəndə köçən bir qrup sakinlə görüşən Prezident İlham Əliyev deyib: "İndi İkinci Qarabağ müharibəsindən dörd il keçibdir, baxın, nə qədər böyük işlər görüldü, hər yerdə, təkcə Xocalı rayonunda yox. Halbuki Xocalı şəhərini bərpa etmək bizim ən başlıca borcumuz idi. Çünki müharibədən və işğaldan, Birinci Qarabağ müharibəsinin çətin vəziyyətindən əziyyət çəkən ən çox elə xocalılılar olmuşdur, onlara qarşı soyqırımı törədilmişdi. Ona görə Xocalını azad etmək hər zaman gündəlikdə duran məsələ idi. İkinci Qarabağ müharibəsi 2020-ci il noyabrın 10-da dayanandan sonra yenə də bütün köçkünlər bilirdilər ki, Xocalı azad olunmayana qədər biz işimizi bitmiş hesab etməyəcəyik".

Cəmi 8 ay ərzində bərpa edilmiş Xocalıda Memorial Kompleksin təməli qoyulub, gözəl evlər tikilib, istirahət guşələri yaradılıb. Strateji mövqeyə malik rayonda beynəlxalq hava limanı, respublika əhəmiyyətli avtomobil və dəmir yolları Xocalını gələcəkdə nəqliyyat qovşağı və logistika mərkəzinə çevirəcək. Regional mərkəz kimi inkişaf etdiriləcək şəhərdə bütün zəruri sosial, inzibati xidmət sahələri olacaq, ticarət müəssisələri, ictimai iaşə obyektləri fəaliyyət göstərəcək. Eyni zamanda bütün şəhər boyu yaşıl məkanlarla əlaqələndirilmiş komfortlu yaşayış əraziləri nəzərdə tutulub. Əsasən 3-5 mərtəbəli yaşayış binaları, həyətyanı sahələrə malik fərdi evlər tikilir. Eyni zamanda kiçik aqroparkların yaradılması yerli iqtisadiyyatın və özəl sektorun inkişafına stimul verəcək. Həmçinin müxtəlif tikinti materiallarının istehsalı, yüngül sənaye, qida sənayesi obyektlərinin yaradılması iqtisadi inkişafı təmin edəcək. Bir sözlə, nəqliyyat, logistika, kənd təsərrüfatı, ticarət və sənaye sahələrinin inkişafı rayonun iqtisadi inteqrasiyasını gücləndirəcək. Xankəndindən 10 kilometr məsafədə yerləşən Xocalı iqtisadi fəaliyyətin mərkəzinə, regional tranzit nöqtəsinə çevriləcək. Baş Plana əsasən şəhərdə geniş yaşıl zonalar salınacaq. Xocalı şəhərində yenidənqurma çərçivəsində tikilən orta təhsil müəssisəsi, uşaq bağçası, idman kompleksi, tamamlanan infrastruktur layihələri uzun illər yurd-yuvasından didərgin düşmüş xocalılıların rahat yaşamasına hesablanıb. Bütün bu işlər həyata keçirildikcə məcburi köçkün taleyi yaşamış soydaşlarımız böyük sevinc hissilə doğma ocaqlarına qayıdırlar. Bir vaxtlar keçmiş günlərini xatırlayıb, gələcəyin xəyallarını quran, indi illərin həsrətindən sonra qovuşduqları doğma yurda qədəm basarkən ilk kəlmələri belə olur: Xocalı, biz qayıtmışıq…

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika.- 2025.- 26 fevral (№ 43).- S.1;3.